“AZƏRBAYCAN DÖVLƏT DƏNİZ AKADEMİYASI”

PUBLİK HÜQUQİ ŞƏXSİ

“TƏSDİQ EDİRƏM”

“Azərbaycan Dövlət Dəniz Akademiyası”

Publik Hüquqi Şəxsin

prorektoru_____ dos. V.B.Sadıqov

“___”_____2025-ci il

KEYFİYYƏTİ İDARƏETMƏ SİSTEMİ

“ADDA” PHŞ-də imtahanların keçirilmə Qaydaları

ADDA-TL-017

BAKI 2025

MÜNDƏRİCAT

Giriş.....3

1. **Tətbiq sahəsi.....3**
2. **Məsuliyyət.....3**
3. **Daxil olan məlumatlar.....4**
4. **Yazılı imtahanların keçirilməsi qaydaları.....5**
5. **“Elektron Akademiya” platforması üzərindən test imtahanlarının keçirilməsi qaydaları.....6**
6. **Yazılı - şifahi imtahanların keçirilməsi qaydaları.....8**
7. **Resurslar.....9**

GİRİŞ

“Azərbaycan Dövlət Dəniz Akademiyası” Publik Hüquqi Şəxsinin Keyfiyyəti İdarəetmə Sisteminin bu sənədi İSO 9001:2015 beynəlxalq standartının 7.5-ci bəndinin tələblərinə və ADDA-KP-002 “Sənədləşdirilmiş məlumatların idarəolunması” proseduruna müvafiq olaraq işlənib hazırlanmışdır.

1. TƏTBİQ SAHƏSİ

1.1. Bu qaydalar Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi tərəfindən 11.09.2008-ci il tarixli 1059 saylı əmri ilə təsdiq edilmiş “Kredit sistemi ilə təhsil alan tələbələrin fənlər üzrə imtahanları haqqında” əsasnaməyə uyğun tərtib edilib.

1.2. Sənədləşdirilmiş prosedur təhsil prosesinin təmin edilməsi və aparılması prosesində iştirak edən bütün Akademiya əməkdaşları üçün məcburidir.

1.3 Bu sənədləşdirilmiş prosedurda istifadə olunan terminlər ISO 9000:2015 “Keyfiyyət İdarəetmə Sistemləri” Beynəlxalq Standartına uyğundur. Əsaslar və lüğət."

1.4 Akademiyanın rektoru bu sənədləşdirilmiş proseduru və ona dəyişiklikləri təsdiq edir, bu sənədin tələblərinin yerinə yetirilməsi üçün zəruri resurs ayırır.

1.5. Akademiyanın prorektoru bu sənədləşdirilmiş prosedura uyğun işlərin təşkilinə cavabdehdirlər.

1.6. Prosesdə iştirak edən Akademiyanın əməkdaşları bu KİS sənədində göstərilən tələblərin yerinə yetirilməsinə cavabdehdirlər.

1.7. Sənədləşdirilmiş prosedurun tələblərinə uyğunluğun yoxlanılması illik KİS planına uyğun olaraq daxili audit tərəfindən həyata keçirilir.

1.8. Bu sənəddə aşağıdakı simvollar və abreviaturalardan istifadə olunur:

İSO - beynəlxalq standartlaşdırma təşkilatıdır;

BS - beynəlxalq standart;

KİS - keyfiyyət idarəetmə sistemi;

“ADDA” PHŞ – “Azərbaycan Dövlət Dəniz Akademiyası” Publik Hüquqi şəxsi, Akademiya.

EA- Elektron akademiya

1.9. Bu sənəddə aşağıdakı normativ istinadlardan istifadə olunur:

ISO 9000:2015 BS “Keyfiyyət İdarəetmə Sistemləri” Beynəlxalq Standartına uyğundur. Əsaslar və lüğət."

ISO 9001:2015 BS “Keyfiyyəti İdarəetmə sistemi. Tələblər”

ADDA-KP-002 “Sənədləşdirilmiş məlumatların idarə olunması”

2. DAXİL OLAN MƏLUMATLAR

2.1 İmtahan tələbələrin və dinləyicilərin aldığı nəzəri biliklərin mənimsəmə səviyyəsini, təfəkküründün inkişafını, sərbəst işləmə bacarığını, təcrübi məsələlərin həllində həmin biliklərdən istifadə etmək qabiliyyətini müəyyənləşdirmək və qiymətləndirmək üçün nəzərdə tutulur.

2.2 İmtahan sessiyası rektorun imtahan sessiyasına hazırlıq əmrinə müvafiq keçirilir və bu işin həyata keçirilməsində məsuliyyəti tədris və tərbiyə işləri üzrə prorektor, tədris qeydiyyat şöbəsinin müdiri və fakültə dekanları daşıyır.

2.3 Fənn üzrə biliklərə yekun nəzarəti müvafiq kafedra həyata keçirir və bu işlərə kafedra müdiri və fənn müəllimi məsuliyyəti daşıyır.

2.4 İmtahanlar bir qayda olaraq Elektron Akademiya platforması üzərindən yazılı, yazılı-şifahi və test üsulu ilə aparılır.

2.5 Fənlər üzrə imtahan suallarının (yazılı, yazılı-şifahi və sistemdaxili test) hazırlanmasına və müntəzəm yeniləşdirilməsinə görə məsuliyyəti kafedra müdirləri və fənni tədris edən müəllim daşıyır.

2.6 Fənn müəllimləri semestr (payız və yaz) başladığı tarixdən 1 (bir) ay müddətində imtahan suallarını tərtib edərək kafedra iclasında təsdiq üçün təqdim etməlidir.

2.7 Bütün növ fənlər üzrə imtahan sualları (yazılı, yazılı-şifahi və test) kafedra iclaslarında təsdiq edildikdən sonra “Elektron Akademiya” platformasına daxil edilməli və qruplar üzrə imtahanların strukturu qurulmalıdır.

2.8 (1.9) - bəndində qeyd olunan işlər imtahan sessiyasının (payız və yaz) başlanmasına 1 (bir) ay qalmış tam yekunlaşmalıdır.

2.9 Fənlər üzrə imtahan sualları (yazılı, yazılı-şifahi və test) nomenklaturada qeyd olunan müddətdə elektron formada kafedrada saxlanılmalıdır.

2.10 İmtahanların yekun nəticələrinin analizini fakültə dekanları həyata keçirir və rektora məlumat verilir. (Forma 34)

2.11 İmtahan sessiyasında aşağıda qeyd olunanlara ciddi riayət olunmalıdır:

2.11.1 İmtahan sessiyası başlanana qədər tələbə imtahan cədvəli ilə tanış olmalı, imtahanların tarixini, saatını və auditoriyanın nömrəsini bilməliTələbələr imtahanın başlanmasına 15 dəqiqə qalmış təyin olunmuş auditoriya qarşısına toplanmalıdırlar;

2.11.2 Tələbə auditoriyaya imtahana 5 dəqiqə qalmış dəvət olunmalıdır;

2.11.3 İmtahana buraxılış üçün tələbənin tələbə bileti (kartı) təqdim olunmalıdır;

2.11.4 İmtahan başlanandan sonra 10 dəqiqədən çox imtahana gecikən tələbələr imtahana buraxılmır (üzürlü səbəb olmadıqda). Üzürlü səbəb haqqında (xəstə olması haqqında tibbi arayış) rəsmi sənəd təqdim edildiyi halda həmin tələbəyə növbəti semestrin dərsləri başlayana qədər 1 dəfə həmin imtahanı vermək imkanı yaradılır (Nazirlər Kabinetinin 348 saylı qərarı 3.12.4 bəndi);

2.11.5 İmtahan vaxtı elmi lüğətlərdən, kitablardan, konspektlərdən və fənnə aid digər ləvazimatlardan istifadə olunması qəti qadağandır;

2.11.6 İmtahan vaxtı siqaret çəkməyə, yemək yeməyə, qazsız su istisna olmaqla digər içkilər içməyə icazə verilmir;

2.11.7 Tələbə imtahan vaxtından səmərəli istifadə etməli və imtahan suallarının cavablarını vaxta görə planlaşdırmalıdır;

2.11.8 İmtahan suallarına cavab verməmişdən əvvəl tələbə imtahan sualları ilə diqqətlə tanış olmalıdır.

2.11.9 Tələbənin imtahan zamanı başqa tələbələrlə danışması qadağandır.

2.11.10 Zal Nəzarətçisinin icazəsi olmadan tələbənin imtahanı tərk etməsi qadağandır.

2.11.11 İmtahan zamanı zal nəzarətçisinin göstərişlərinə əməl olunmalıdır.

2.11.12 Tələbə nəzarətçi ilə imtahan suallarına cavab barədə heç bir müzakirə etməməlidir. Zal Nəzarətçisi ancaq imtahanın düzgün aparılmasına nəzarət edir. Bu qayda pozularsa nəzarətçi akt tərtib edərək tələbəni imtahandan kənarlaşdırmalıdır və sonda müvafiq akt rəhbərliyə təqdim edilməlidir.

2.11.13 Kənar şəxslərin imtahan keçirilən auditoriyalara daxil olması qəti qadağandır.

2.11.14 İmtahan nəticələri imtahan günü və ya müstəsna hallarda səhəri gün tələbələrə elan edilir.

3 YAZILI İMTAHANLARIN KEÇİRİLMƏSİ QAYDALARI

3.1 İmtahan başlananda tələbə bilet və “Cavab kitabçası”nı götürdükdən sonra uyğun yerdə əyləşir.

3.2 İmtahana gələndə tələbə qələm, karandaş, kalkulyator (Ali riyaziyyat fənindən olan imtahanlar istisna olmaqla) və s. lazımi vəsaitləri gətirə bilər.

3.3 Kalkulyatordan o zaman istifadə etməyə icazə verilir ki, o proqramlaşdırılma imkanına malik olmasın və alfa-klaviaturası olmasın.

3.4 İmtahan vaxtı elektron vəsaitlərdən (2.3 bəndində qeyd olunan şərtlər daxilində kalkulyator istisna olmaqla) istifadə olunmasına qəti olaraq icazə verilmir. Bu elektron vəsaitlərinə aiddir: mobil telefon, peycer, smartfon və s.

3.5 İmtahan vaxtı tələbə ancaq zal nəzarətçisi tərəfindən ona verilən “Cavab kitabçası”ndan istifadə etməlidir və imtahan suallarının cavablarını ancaq bu “Cavab kitabçası”na yazmalıdır.

3.6 Tələbə imtahan suallarına cavab yazarkən “Cavab kitabçası”nda səhv buraxmışsa onun üstündən xətt çəkməli və davam edərək yenidən yazmalıdır (Qaralamaq qadağandır).

3.7 ”Cavab kitabçası”nda korrektor-ştrixdən istifadə etmək qadağandır.

3.8 Tələbə “Cavab kitabçası”nda bütün imtahan suallarının hamısını yazılı şəkildə cavablabndıra bilər. Tələbə əgər hansı bir sualın cavabını bilmirsə, buna baxmayaraq erudisiyasını göstərməklə bu sual haqqında bir məlumat yaza bilər. Bu cavab da qiymətləndirilir.

3.9 Tələbə imtahan zalını imtahanın başlanmasından minimum 40 dəqiqə keçdikdən sonra tərk edə bilər, o cümlədən, imtahanın sonunda sona qalan minimum iki tələbənin eyni vaxtda imtahan zalını tərk etməsinə icazə verilir.

3.10 Tələbənin “Cavab kitabçası”nı və imtahan biletini zal nəzarətçisinə təhvil verməmiş imtahanı tərk etməsi qadağandır.

4 “ELEKTRON AKADEMİYA” PLATFORMASI ÜZƏRİNDƏN TEST İMTAHANLARININ KEÇİRİLMƏSİ QAYDALARI

4.1 Bir qayda olaraq test imtahanlarının “Elektron Akademiya” platforması üzərindən aparılmasına icazə verilir (“Elektron Akademiya” platformasında uzunmüddətli texniki nasazlıqların yaranma halı istisna olmaqla).

4.2 Test imtahanına daxil olan tələbə hər hansı boş kompüterin birində istifadəçi adını və şifrəsini “Avtomatlaşdırılmış test sistemi”nə özü daxil edir. Qeydiyyata düşmək üçün tələbəyə 5 dəqiqə vaxt verilir.

4.3 Tələbə istifadəçi adını və şifrəsini açıqlamamalıdır. İstifadəçi adını və şifrəsini digər şəxsə verən və imtahan nəticələrini saxtalaşdıran tələbə inzibati qaydada cəzalandırılır. (Daxili nizam-intizam qaydalarına müvafiq)

4.4 Tələbə “Elektron Akademiya” platformasında öz səhifəsinə və imtahan bölməsinə daxil olduqdan sonra sistem administratoru tərəfindən hər tələbəyə sistem üzərindən imtahana başlamaq üçün birdəfə istifadə olunabiləcək xüsusi şifrə təqdim olunur. Tələbə imtahana başlamaq üçün ona təqdim olunan şifrəni daxil etməlidir və sistem tərəfindən ona təqdim olunan testləri cavablandırmağa başlamalıdır.

4.5 Tələbə test imtahanlarını yalnız imtahan başlamasından 25 dəqiqə keçdikdən sonra tərk edə bilər. Elektron Akademiya platforması üzərindən test imtahan müddəti 60 dəqiqədir

4.6 Tələbə sistemdə yaranmış hər hansı bir texniki nasazlıq (elektrik və ya internet xəttinin kəsilməsi, proqram təminatında yarana biləcək nasazlıqlar və s.) səbəbindən imtahanı tamamlaya bilmədikdə cavabdeh şəxslər tərəfindən məsələ araşdırılmalıdır. Əgər qeyd olunan üzrlü səbəblərdən tələbə imtahanı tamamlaya bilməyibsə ona təkrar sistem tərəfndən generasiya olunmuş birdəfəlik istifadə üçün şifrə verilməlidir və tələbə imtahana davam etməlidir.

4.7 Əgər 3.6 bəndində qeyd olunan üzrlü səbəb olmadıqda tələbə imtahandan kənarlaşdırılır və proses 3.8 bəndi üzrə icra olunur.

4.8 Test imtahanı vaxtı tələbələr nəzarətçilərin göstərişlərini yerinə yetirməlidirlər. Danışıqlar, zalda gəzişmələr, mobil rabitədən istifadə, köçürmə, imtahan vaxtı zaldan çıxmaq və imtahana mane olan digər hərəkətlər qadağandır. Tələblər pozulduqda nəzarətçi akt tərtib etməklə və “Elektron Akademiya” platformasının imtahanların təşkili üzrə səlahiyyətli şəxsini məlumatlandıraraq, tələbəni imtahan zalından xaric etmək hüququna malikdir.

4.9 Tələbənin test imtahanından xaric edilməsi hallarında fakültə dekanı müvafiq ölçülər götürür və tələbənin gələcəkdə test imtahanında iştirakı haqqında qərar qəbul edir.

4.10 Tələbə testlə işlədikdən sonra kompüterin ekranında onun testdən keçmə nəticəsi göstərildikdən sonra digər iştirakçılarına mane olmayaraq, imtahan zalını tərk edir.

5 YAZILI - ŞİFAHİ İMTAHANLARIN KEÇİRİLMƏSİ QAYDALARI

5.1 Tələbə tələbə biletini (kartı) təqdim etməklə, imtahanda iştirak edir.

5.2 İmtahan vaxtı elektron vəsaitlərdən (2.3 bəndində qeyd olunan şərtlər daxilində kalkulyator istisna olmaqla) istifadə olunmasına qəti olaraq icazə verilmir. Bu elektron vəsaitlərinə aiddir: mobil telefon, peycer, smartfon və s.

5.3 İmtahan vaxtı tələbə qeydlərini ancaq ona verilən “Cavab kitabçası”nda yazmalıdır.

5.4 Tələbə imtahanda Əsasnamədə (ADDA-ƏS-009) göstərilən tələblərə və qaydalara əməl etməlidir. O, bu tələblərə və qaydalara əməl etmədikdə imtahan qəbul edən komissiya tərəfindən akt tərtib edilir və tələbənin imtahan nəticələrinin ləğv olunması barədə qərar qəbul olunur.

5.5 İmtahan Əsasnaməyə uyğun olaraq yazılı-şifahi formada aparılır.

5.6 İmtahan vaxtı elektron vasitlərdən istifadə olunmasına icazə verilmir. Bu elektron vasitlərinə mobil telefon, peycer, smartfon və s. aiddir.

5.7 İmtahanda elmi lüğətlərdən, kitablardan, konspektlərdən və fənn ləvazimatlarından istifadə olunması qadağandır.

5.8 Yazılı-şifahi imtahanının davametmə müddəti və imtahan proseduru aşağıdakı kimi müəyyən edilir:

- İmtahan başlananda tələbə bilet və “Cavab kitabçası”nı götürdükdən sonra təyin olunmuş yerdə əyləşir.
- Tələbəyə suallara hazırlaşmaq və qeydlərin aparılması üçün 20 dəqiqəyə qədər, biletdə olan 5 sualın cavablandırılması üçün isə 25 dəqiqəyə kimi vaxt verilir;
- İmtahan başladıqda auditoriyaya əvvəlcə 2 tələbə dəvət olunur. Onlar, bilet götürür, yuxarıdakı vaxt normasına uyğun suallara hazırlaşdıqdan sonra imtahan vermək üçün komissiya üzvlərinə yaxınlaşır. Yalnız bundan sonra 3-cü tələbə bilet götürmək üçün dəvət olunur. Növbəti tələbələr də əvvəlki tələbə imtahan vermək üçün hazır olduqdan sonra dəvət olunur və imtahanda 3 nəfərdən çox tələbə olmur.
- İmtahan planlaşdırılan gün bir akademik qrupun imtahana buraxılan bütün tələbələri attestasiyadan keçənədək davam edir.

5.9 Tələbə bilet götürdükdən sonra əyləşir və 20 dəqiqə ərzində biletdəki suallara aid ona verilən “Cavab kitabçası”nda hər bir sual haqqında qeydlər aparır.

5.10 Tələbəyə verilən vaxt başa çatdıqdan sonra o, qeydlərlə birlikdə komissiya üzvləri qarşısında əyləşir və biletdəki hər bir sual haqqında ətraflı izahatlar verir.

5.11 Hər bir sualın izahından sonra komissiya üzvləri tələbəyə danışdığı mövzuya, və yaxud, həmin mövzunun aid oluğu fənnə uyğun əlavə suallar verə bilər.

5.12 Tələbənin biletdəki və əlavə suallara cavabından sonra komissiya tələbənin cavablarını qiymətləndirir və bu qiymətlər əsasında onun yekun qiyməti müəyyən edilir.

5.13 Tələbə imtahanının nəticələri ilə razı olmadıqda, nəticələr elan olunan gün ADDA tərəfindən yaradılmış appelyasiya komissiyasına şikayət verə bilər. Şikayətə 3 iş günü ərzində baxıldıqdan sonra nəticələrə dair müvafiq qərar qəbul edilir.

6. RESURSLAR

6.1. Bu sənədləşdirilmiş prosedurun tələblərini yerinə yetirmək üçün Akademiyanın rektoru aşağıdakı zəruri resursları ayırır:

- normativ sənədlər;
- ixtisaslı kadrlar;
- binalar, avadanlıqlar, materiallar;
- maddi resurslar.